# Mühəndis (Layların və quyuların tədqiqi, işlənməsi və elmi tədqiqat laboratoriyası üzrə) vəzifəsi üzrə test tapşırıqları

1. Lay qüvvələrinin təsiri altında məsaməli mühitdə maye və qazın hərəkət prosesi, maye və qazın quyu dibindən yer üzərinə qaldırılması nə zaman baş verir?

A) Qaz yataqlarının istismarı zamanı

B) Neft yataqlarının istismarı zamanı

C) Neft yataqlarının dinamikası öyrənildikdə

D) Qaz yataqlarının dinamikası öyrənildikdə

E) Neft-qaz mədən geologiyasının öyrənilməsində

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 5

2. Neft laylarının işlənilməsi dedikdə hansı proses nəzərdə tutulur?

A) Quru şəraitində neftin sudan ayrılması prosesinin müxtəlif vasitələrlə idarə edilməsi

B) Lay neftinin özlülüyünü azaltmaq prosesi

C) Layda quyu dibinə maye (qaz) hərəkəti prosesinin müxtəlif vasitələrlə idarə edilməsi

D) Məsaməliyin xüsusiyyətlərinin öyrənilməsi

E) Layın energetik xüsusiyyətlərinin öyrənilməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 5

3. Layda maye (qaz) hərəkəti prosesini necə idarə etmək olar?

A) Lay neftinin özlülüyünü azaltmaqla, məsaməliyin xüsusiyyətlərinin öyrənilməsi ilə

B) Məsaməliyin xüsusiyyətlərini öyrənilməsi ilə

C) Layın energetik xüsusiyyətlərinin öyrənilməsi ilə

D) Laya qazılacaq quyuların istismar edilməsi şəraitindən, layın enerji balansına süni olaraq təsir edilməsi ilə

E) Quru şəraitində neftin sudan ayrılması prosesinin aparılması ilə

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 5

4. Quyuların iş rejimi necə müəyyən edilir?

A) Quyuların texnoloji və statik şəraitindən asılı olaraq müəyyən edilir

B) Lay suyun və qazın fiziki şəraitindən asılı olaraq müəyyən edilir

C) Lay neftin və qazın fiziki şəraitindən asılı olaraq müəyyən edilir

D) Lay neftin və suyun fiziki şəraitindən asılı olaraq müəyyən edilir

E) Quyuların geoloji və texniki şərtlərdən asılı olaraq müəyyən edilir

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 5

5. İşlənilmənin əsas məsələsi nədən ibarətdir?

A) Laya qazılacaq quyuların sayından, onların yerləşdirilməsindən və işə salınması qaydasından

B) Laya vurucu quyuların sayından, onların yerləşdirilməsindən və işə salınması qaydasından

C) Qaz quyularının sayından, yerləşdirilməsindən və işə salınmaması qaydasından

D) Laya vurucu quyuların sayından, onların yerləşdirilməməsindən və işə salınması qaydasından

E) Laya vurucu quyuların sayından, layın kollektor xüsusiyyətlərinin öyrənilməsindən

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 5

6. Layın enerji balansını dəyişmək məqsədi üçün hansı əsas məsələlərə baxılmalıdır?

A) Qranulometrik analiz aparılmalıdır

B) Laya süni təsir göstərilməlidir

C) Neftin fiziki xüsusiyyətləri öyrənilməlidir

D) Layın energetik xüsusiyyətləri öyrənilməlidir

E) Laya vurucu quyuların sayı və layın kollektor xüsusiyyətlərinə baxılmalıdır

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 5

7. İşlənilmə sisteminin səmərəli olmasını müəyyən etmək üçün hansı əsas göstəricilər birlikdə öyrənməlidir?

A) İnjeksiya quyuların yerləşdirilməsi, kollektor xüsusiyyətlərinin öyrənilməsi, layın energetik xüsusiyyətlərinə təsir

B) Quyuların sayı və onların yerləşdirilməsi sxemi,kollektor xüsusiyyətlərinin öyrənilməsi, işlənilmənin iqtisadi göstəriciləri

C) Quyuların sayı və onların yerləşdirilməsi sxemi, laya süni təsir üsulu, işlənilmənin iqtisadi göstəriciləri

D) Quyuların sayı və onların yerləşdirilməsi sxemi,kollektor xüsusiyyətlərinin öyrənilməsi, layın energetik xüsusiyyətlərinin öyrənilməsi

E) Quyuların sayı və onların yerləşdirilməsi sxemi,kollektor xüsusiyyətlərinin öyrənilməsi, injeksiya quyularının yerləşdirilməsi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 6

8. Laya qazılan quyuların sayı az olduqda, bu bir quyuya düşən hasilata necə təsir edir?

A) Bir quyuya düşən hasilat 0 bərabər olur

B) Bir quyuya düşən hasilat minimuma enir

C) Bir quyuya düşən hasilat azalır

D) Bir quyuya düşən hasilat daha yüksək olur

E) Bir quyuya düşən hasilat dəyişmir

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 6

9. Bircinsli layda ehtiyatdan istifadə etmə əmsalı hansı amillərdən asılıdır?

A) Kollektor xüsusiyyətlərindən, işlənilmə tempidən, lay təziyiqinin dəyişmə xarakterindən

B) Layın iş rejimindən, işlənilmə tempinən, lay təziyiqinin dəyişmə xarakterindən

C) Kollektor xüsusiyyətlərindən, injeksiya quyularının sayından, lay təziyiqinin dəyişmə xarakterindən

D) Layın iş rejimindən, vurulan suyun xüsusiyyətindən, lay təziyiqinin dəyişmə xarakterindən

E) Layın iş rejimindən, hərəkət edən mayelərin özlülüyündən, lay təziyiqinin dəyişmə xarakterindən

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 6

10. Həll olan maddənin mayedə paylanmasına nə deyilir?

A) Absorbsiya

B) Diffuziya

C) Dispersiya

D) Korellyasiya

E) Səthi qeyri-aktiv gəlirmə

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.X.Mirzəcanzadə, M.Ə.İsgəndərov, P.Q.Paşayev. Neft və qaz yataqlarının işlənilməsi və istismarının nəzəri əsasları. Bakı, 1980, səh.12

11. Quyuların qərarlaşmamış rejimlərdə hidrodinamik tədbiqi etdikdə hansı işlər aparılmalıdır?

A) Quyunun işi dayandırılmamalıdır və quyudibi təzyiqinin zamandan asılı olaraq dəyişməsi əyrisi qurulmalıdır

B) Quyunun işi dayandırılmalıdır və bu andan başlayaraq quyudibi təzyiqinin zamandan asılı olaraq dəyişməsi əyrisi qurulmalıdır

C) Quyunun işi dayandırılmalıdır və bu andan başlayaraq lay temperaturunun dəyişməsi əyrisi qurulmalıdır

D) Quyunun işi dayandırılmalıdır və bu andan başlayaraq lay neftin özlülüyü öyrənilməlidir

E) Quyunun işi dayandırılmamalıdır və lay temperaturunun dəyişməsi əyrisi qurulmalıdır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014, səh.350

12. Quyuların qərarlaşmamış rejimlərdə hidrodinamik tədbiqi etdikdə onun işi dayandırılmalıdır və bu andan başlayaraq quyudibi təzyiqinin zamandan asılı olaraq dəyişməsi əyrisi qurulmalıdır. Bu əyriyə nə deyilir?

A) Şuxart əyrisi

B) Dinamik əyri

C) Quyudibi təzyiqinin bərpası əyrisi

D) Pyezometrik əyri

E) Termodinamik əyri

Testin çətinlik dərəcəsi: orta

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014, səh.351

13. Çox dərində yerləşmiş və qaz papağı olan neft layları necə adlandırılır?

A) İki fazalı neft yatağı

B) Bir fazalı qaz yatağı

C) Üç fazalı qaz kondensat yatağı

D) İkifazalı qaz kondensat yatağı

E) Bir fazalı qaz kondensat yatağı

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 217

14. Qərarlaşmış rejimdə quyuların tətbiq edilməsi nədən ibarətdir?

A) Müxtəlif rejimdə və müəyyən kollektor xüsusiyyətindən və ya maye səviyyəsində quyuların qərarlaşmış hasilatını ölçməkdən

B) Müxtəlif rejimdə və müəyyən quyudibi temperaturunun və ya maye səviyyəsində quyuların qərarlaşmış hasilatını ölcməkdən

C) Müxtəlif rejimdə və müəyyən quyudibi temperaturunun və ya təbii rejimində qərarlaşmış hasilatını ölcməkdən

D) Müxtəlif rejimdə və müəyyən özlülükdə və ya təbii rejimində qərarlaşmış hasilatını ölcməkdən

E) Müxtəlif rejimdə və müəyyən quyudibi təzyiqində və ya maye səviyyəsində quyuların qərarlaşmış hasilatını ölcməkdən

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 52

15. Qərarlaşmış rejimlərə əsaslanan üsulda hansı göstəricilər ölçülür?

A) Müxtəlif qərarlaşmış rejimlərə uyğun gələn məhsuldarlıq və quyudibi təzyiqləri ölcülür

B) Müxtəlif qərarlaşmış rejimlərə uyğun gələn məsaməlik və quyudibi təzyiqləri ölcülür

C) Müxtəlif qərarlaşmış rejimlərə uyğun gələn məsaməlik və quyudibi temperatur ölcülür

D) Müxtəlif qərarlaşmış rejimlərə uyğun gələn keçiricilik və quyudibi temperatur ölcülür

E) Müxtəlif qərarlaşmış rejimlərə uyğun gələn keçiricilik və quyudibi özlülük ölcülür

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 52

16. Fontan üsulu ilə istismarında quyuların iş rejimini dəyişmək üçün hansı işlər aparılmalıdır?

A) Temperatur dəyişilməlidir

B) Ştuser dəyişilməlidir

C) Vurulan işçi agentin miqdarını dəyişilməlidir

D) Mancanaq dəzgahının atqı parametrləri dəyişilməlidir

E) Karotaj diaqrammları interpretasiyası aparılmalıdır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 53

17. Kompressor üsulu ilə istismarda quyuların iş rejimini dəyişmək üçün hansı işlər aparılmalıdır?

A) Temperatur dəyişilməlidir

B) Ştuser dəyişilməlidir

C) Vurulan işçi agentin miqdarını dəyişilməlidir

D) Mancanaq dəzgahının atqı parametrləri dəyişilməlidir

E) Karotaj diaqrammları interpretasiyası aparılmalıdır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 53

18. Dərinlik nasosu üsulu ilə istismarda quyuların iş rejimini dəyişmək üçün hansı işlər aparılmalıdır?

A) Temperatur dəyişilməlidir

B) Ştuser dəyişilməlidir

C) Vurulan işçi agentin miqdarını dəyişilməlidir

D) Mancanaq dəzgahının atqı parametrləri dəyişilməlidir

E) Karotaj diaqrammları interpretasiyası aparılmalıdır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 53

19. Dərinlik nasos quyularını tədqiq dedikdə nə başa düşülür? Cavabların hansı doğrudur?

A) Quyu hasilatının dərinlik nasos qurğusunun parametrlərindən asılılığı müəyyən edilir.

B) Quyu hasilatının quyu dibi təzyiqdən və yab depressiyadan asılılığı müəyyən edilir.

C) Cari lay təzyiqi təyin edilir

D) Quyu üçün optimal iş rejimi müəyyən edilir

E) Hamısı

Testin çətinlik dərəcəsi: orta

İstinad: C. Abbasov, L. Məlik-Aslanov. Neft yataqlarının istismarı, Bakı 1964, səh. 243

20. Qərarlaşmış rejimdə aparılan tədqiqat üsulunun müsbət cəhəti nədən ibarətdir?

A) Tədqiqat zamanı quyunun dayandırılmaması, quyunun məhsulunun əsas hissələri (neft,qaz, su) arasında münasibətin tapılmasından

B) Tədqiqat zamanı quyunun dayandırılması, quyunun məhsulunun əsas hissələri (neft,qaz, su) arasında münasibətin tapılmasından

C) Tədqiqat zamanı quyunun dayandırılmaması, quyunun məhsulunun əsas hissələri (neft,qaz, su) arasında münasibətin olmamasından

D) Tədqiqat zamanı kollektor xüsusiyyətlərinin, quyunun məhsulunun əsas hissələri (neft,qaz, su) arasında münasibətin öyrəniməsindən

E) Tədqiqat zamanı energetik xüsusiyyətlərinin, quyunun məhsulunun əsas hissələri (neft,qaz, su) arasında münasibətin öyrənilməsindən

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 54

21. Neft yataqlarının işlənilməsi prosesində quyuların işi hansı göstəricilərlə xarakterizə olunur?

A) Kollektor xüsusiyyətləri ilə

B) Neft, qaz və suyun debiti ilə

C) Energetik xüsusiyyətlər ilə

D) Təbii rejim ilə

E) Fiziki-kimyəvi xüsusiyyətləri ilə

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.M.Abdurahmanova. Neft quyularının hasilatının ənənəvi üsullarla ölçülməsi. Azərbaycan neft təsərrüfatı, №7-8, 2017, səh. 44

22. Neft quyularının hasilatını ölçmək üçün hansı qurğulardan istifadə edilir?

A) Ampermetr

B) Barometr

C) Fərdi və qrup ölçmə qurğularından

D) Termometr

E) Viskozimetr

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.M.Abdurahmanova. Neft quyularının hasilatının ənənəvi üsullarla ölçülməsi. Azərbaycan neft təsərrüfatı, №7-8, 2017, səh. 44

23. Quyu dibi zonanın termoturşu ilə işlənməsində ən əhəmiyyətli üsul hansı hesab olunur?

A) Xlorid turşusu ilə metallik maqneziumun reaksiyasından yaranan istilik effekti

B) Xlorid turşusu ilə qələvi tullantısının reaksiyasından yaranan istilik effekti

C) Xlorid turşusu ilə kükürdün reaksiyasından yaranan istilik effekti

D) Xlorid turşusu ilə tətbiqdən sonra ayrılan istilik effekti

E) Xlorid turşusu ilə qızdırılmış neftin reaksiyasından yaranan istilik effekti

Testin çətinlik dərəcəsi: çətin

İstinad: C. Abbasov, L. Məlik-Aslanov. Neft yataqlarının istismarı, Bakı 1964, səh. 263

24. Layın quyu dibi zonasına yüksək təzyiqlə mayeni vurulmaqla ordakı çatların genişləndirilməsinə və ya yeni yarıqların açılmasına nə deyilir.

A) Mexaniki yarılma

B) Hidravlik yarılma

C) Adi yarılma

D) Süzgəclərin genişləndirilməsi

E) Əlavə süzgəclərin açılması

Testin çətinlik dərəcəsi: çətin

İstinad: C. Abbasov, L. Məlik-Aslanov. Neft yataqlarının istismarı, Bakı 1964, səh. 265

25. Neftin və qazın hasil edilməsi üçün və fondun böyük əksəriyyətini təşkil edən quyular hansılardır?

A) İstismar quyuları

B) Vurucu quyular

C) Xüsusi quyular

D) Köməkçi quyular

E) Təsiredici quyular

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.Ə.Bağırov. Neft-qaz mədən geologiyası. Bakı 2011, səh.184

26. Laylara təsir üsullarının həyata keçirilməsi üçün hansı tip quyular istifadə edilir?

A) İstismar quyuları

B) Vurucu quyular

C) Xüsusi quyular

D) Köməkçi quyular

E) Təsiredici quyular

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.Ə.Bağırov. Neft-qaz mədən geologiyası. Bakı 2011, səh.184

27. Quyu dibi zonaya özlü neftin vurulmasının mahiyyəti nədən ibarətdir.

A) Neft üçün nisbi keçiriciliyin artırılması

B) Heç bir əhəmiyyət kəsb etmir

C) Neft üçün nisbi keçiriciliyin azaldılması

D) Suyun qarşısının alınması

E) Su dillərinin qapanması

Testin çətinlik dərəcəsi: asan

İstinad: C. Abbasov, L. Məlik-Aslanov. Neft yataqlarının istismarı, Bakı 1964, səh. 278

28. Quyuların mənimsənilməsi dedikdə nə nəzərdə tutulur?

A) Quyu dibi zonadan gil məhlulunun və s. məhlullarının çıxarılması, laydan quyu dibinə axının yaradılması ilə bağlı olan işlər komleksi

B) Geoloji tədbirlərin aparılması

C) kompleks tədqiqat işləri

D) Quyuda əsaslı təmir işlərinin aparılması, kəmərin sağlamlaşdırılması.

E) Quyuda təzyiqin bərpası əyrisinin çıxarılması

Testin çətinlik dərəcəsi: asan

İstinad: C. Abbasov, L. Məlik-Aslanov. Neft yataqlarının istismarı, Bakı 1964, səh. 77

29. İşləyən quyuda yaranan maye səviyyəsinə nə deyilir?

A) Statik səviyyə

B) Dinamik səviyyə

C) Cari səviyyə

D) Potensial səviyyə

E) işlək səviyyə

Testin çətinlik dərəcəsi: asan

İstinad: C. Abbasov, L. Məlik-Aslanov. Neft yataqlarının istismarı, Bakı 1964, səh. 95

30. Boruların parafindən təmizlənməsi üçün hansı üsullar var?

A) Mexaniki üsul

B) Kimyəvi üsul

C) İstilik üsulu

D) Torpedləmə üsulu

E) Mexaniki, Kimyəvi və İstilik üsulları

Testin çətinlik dərəcəsi: asan

İstinad: C. Abbasov, L. Məlik-Aslanov. Neft yataqlarının istismarı, Bakı 1964, səh. 162

31. Qazların sıxlığı necə $kq/m^3$ dəyişir?

A) 0,50-0,60

B) 0,73-1,00

C) 2,35-4,40

D) 0,55-0,75

E) 1,52-2,32

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.Ə.Bağırov. Neft-qaz mədən geologiyası. Bakı 2011, səh.96

32. Sərbəst qaz ehtiyatlarını hesablamaq üçün əsasən hansı iki üsuldan istifadə edilir?

A) Maddi balans və statistika

B) Həcm və maddi balans

C) Həcm və təzyiq düşküsü

D) Maddi balans və təzyiq düşküsü

E) Maddi balans və temperatur düşküsü

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.Ə.Bağırov. Neft-qaz mədən geologiyası. Bakı 2011, səh.130

33. Sərbəst qaz ehtiyatlarının həcm üsulu ilə hesablanması düsturunda hansı parametrlər iştirak edir?

A) S, h, Z, ƒ, P, α, βq, ηq

B) M, l, k, ƒ, P, α, βq, ηq

C) S, l, k, ƒ, P, α, βq, ηq

D) S, h, m, ƒ, P, α, βq, ηq

E) S, h, m, T, P, α, βq, ηq

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.Ə.Bağırov. Neft-qaz mədən geologiyası. Bakı 2011, səh.130

34. 1 ton neftlə hasil olunan qazın həcminə və ya quyunun qaz debitinin neft debitinə olan nisbətinə nə deyilir?

A) Qazın sıxlaşması

B) Qazın sıxlığı

C) Temperatur

D) Təzyiq

E) Qaz amili

Testin çətinlik dərəcəsi: orta

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014, səh.351

35. Nefti və qazı maye damcılarından, mexaniki qarışıqlardan təmizləmək üçün hansı avadanlıqdan istifadə edilir?

A) Separatordan

B) Nasosdan

C) Siyirtmədən

D) Preventordan

E) Lubrikatordan

Testin çətinlik dərəcəsi: asan

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014, səh.351

36. Yeraltı nasos avadanlığının vəziyyəti və nasosun ayrı-ayrı qovşaqların işinin xarakterinin nəzarəti məqsədilə hansı cihazdan istifadə edilir?

A) Separator

B) Dinamoqraf

C) Siyirtmədən

D) preventordan

E) Lubrikatordan

Testin çətinlik dərəcəsi: çətin

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014, səh.365

37. Neft quyusunda dinamiki səviyyəni hansı  cihazla ölçmək olar?

A) Manometr

B) Aerometr

C)  Viskozimetr

D) Exalot

E) HCİ

Testin çətinlik dərəcəsi: asan

İstinad: D.Ə.İsgəndərov. "Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı". Bakı, 2014

38. Təbii qazlar hansı qrupa bölünür?

A) Qaz yataqlarının qazları, səmt qazları, qaz-neft yataqlarının qazları

B) Səmt qazları, qaz-neft yataqlarının qazları

C) Qaz yataqlarının qazları, səmt qazları, qaz-kondensat yataqların qazları

D) Neft yataqlarının qazları, neftdə həll olunan qazlar, qaz-kondensat yataqların qazları

E) Səmt qazları, qaz-neft yataqlarının qazları, neftdə həll olunan qazlar

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.Ə.Bağırov. Neft-qaz mədən geologiyası. Bakı 2011, səh.95

39. Neftlə bərabər çıxarılan qazlara nə deyilir?

A) Qaz papağının qazı

B) Qaz-kondensat yataqlarının qazları

C) Quru qazlar

D) Səmt qazları

E) Azot

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.Ə.Bağırov. Neft-qaz mədən geologiyası. Bakı 2011, səh.95

40. Qaz yataqlarının işlənilməsi hansı təbii rejimdə mümkündür?

A) Qaz papağı, qravitasiya və su basqısı rejimdə

B) Qaz papağı, qravitasiya və qarışıq rejimdə

C) Qravitasiya, su basqısı və qarışıq rejimdə

D) Qaz, qravitasiya və qarışıq rejimdə

E) Qaz, su basqısı və qarışıq rejimdə

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 198

41. Dərinlik nasoslarının ayrı-ayrı qovşaqlarının işinə aşağıdakı hansı cihazla nəzarət etmək olar?

A) Manometr

B) Aerometr

C) Dinamoqraf

D) Exalot

E) HCİ

Testin çətinlik dərəcəsi: asan

İstinad: D.Ə.İsgəndərov. “Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı”. Bakı, 2014

42. Neftlərin atmosfer şəraitində sıxlığı aşağıdakı hansı bənddə düzgün göstərilib?

A) 650-1020 kq/m3

B) 530-1000 kq/m3

C) 800-1150 kq/m3

D) 730-1060 kq/m3

E) 940-1095 kq/m3

Testin çətinlik dərəcəsi: orta

İstinad: H.F.Mirələmov, Q.Q.İsmayılov. “Neftin və qazın boru kəmərləri ilə nəqli”. Bakı, 2010

43. Kinematik özlülüyün ölçü vahidi aşağıdakı hansı bənddə düzgün göstərilib?

A) Puaz

B) Stoks

C) Metr

D) Saat

E) kq/m2

Testin çətinlik dərəcəsi: asan

İstinad: H.F.Mirələmov, Q.Q.İsmayılov. “Neftin və qazın boru kəmərləri ilə nəqli”. Bakı, 2010

44. “Skineffekt” nəyə deyilir?

A) Lay boyu olan keçiriciliyin quyudibi zonası keçiriciliyindən fərqli olmasına

B) Lay boyu olan keçiriciliyin quyudibi zonası keçiriciliyinə bərabər olmasına

C) Lay boyu olan keçiriciliyin quyuağzı zonası keçiriciliyindən aşağı olmasına

D) Lay boyu olan keçiriciliyin quyuağzı zonası keçiriciliyindən asılı olmasına

E) Lay boyu olan keçiriciliyin quyudibi zonası keçiriciliyinə simmetrik olmasına

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010

45. Laboratoriya şəraiti nəyə deyilir?

A) Təzyiqi 3 atm, temperaturu 300 C olan mühitin şəraitinə laboratoriya şəraiti deyilir

B) Təzyiqi 2 atm, temperaturu 100 C olan mühitin şəraitinə laboratoriya şəraiti deyilir

C) Təzyiqi 1 atm, temperaturu 200 C olan mühitin şəraitinə laboratoriya şəraiti deyilir

D) Təzyiqi 1 atm, temperaturu 00 C olan mühitin şəraitinə laboratoriya şəraiti deyilir

E) Təzyiqi 5 atm, temperaturu 00 C olan mühitin şəraitinə laboratoriya şəraiti deyilir

Testin çətinlik dərəcəsi: orta

İstinad: D.Ə.İsgəndərov. “Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı”. Bakı, 2014

46. Qaz yataqlarında quyuların interferensiyası çox zəifdir, bu nə ilə bağlıdır?

A) Keçiriciliyin az olması ilə

B) Məsaməliyin çox olması ilə

C) Qazın özlülüyünün kiçik olması ilə

D) Qazın kimyəvi xüsusiyyətləri ilə

E) Lay təzyiqinin az olması ilə

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 201

47. Çoxsaylı olmasına baxmayaraq əsas qaz qanunları hansılardır?

A) Boyl-Fişer, Hompers-Meykem, Şarlya, Avoqadro

B) Boyl-Styüdent, Hey-Lüssak, Şarlya, Avoqadro

C) Boyl-Nyüton, Hey-Lüssak, Şarlya, Avoqadro

D) Boyl-Mariot, Hey-Lüssak, Şarlya, Avoqadro

E) Boyl-Mariot, Hompers-Meykem, Şarlya, Avoqadro

Testin çətinlik dərəcəsi: orta

İstinad: E.M.Hacızadə. Azərbaycanın təbii qaz potensialı: reallıqlar və virtual cizgilər. Bakı, 2001, səh.19

48. Su basqısı rejimində işləyən laylarda təbii qidalanma konturu hardan qidalanır?

A) Kontur yer üzərinə çıxır və onun vasitəsilə yerüstü sulardan qidalanır

B) Kontur yer üzərinə çıxmır və onun vasitəsilə yeraltı sulardan qidalanır

C) Kontur yer üzərinə çıxır və onun vasitəsilə yeraltı sulardan qidalanır

D) Kontur yer üzərinə çıxmır və onun vasitəsilə yerüstü sulardan qidalanır

E) Kontur yer üzərinə çıxır və onun vasitəsilə yerüstü sulardan qidalanmır

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 136

49. Su basqısı rejimində laya konturun arxasından su vurduqda injeksiya quyularının mərkəzindən keçən xətt necə adlandırıla bilər?

A) Daxili gidalanma konturu

B) Süni qidalanma konturu

C) Kontur yani qidalanma konturu

D) Kontur arxası qidalanma konturu

E) LNA konturu

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 136

50. Qaz basqısı rejimində qazın özlülüyü çox kiçik olduqda qidalanma konturu necə adlandırıla bilər?

A) Süni qidalanma kontaktı

B) Xarici gidalanma kontakt

C) Qaz-neft kontaktı

D) Su-qaz kontaktı

E) Daxili gidalanma kontakt

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 137

51. Sərt su basqısı rejimində əsas  hərəkət etdirici qüvvə hansıdır?

A) Neftlilik konturunun arxasında olan suyun ağırlıq qüvvəsindən yaranan hidrodinamik basqıdır

B) Neftlilik konturunun yanında olan suyun ağırlıq qüvvəsindən yaranan hidrodinamik basqıdır

C) Neftlilik konturunun yanında olan suyun ağırlıq qüvvəsindən yaranan hidrostatik basqıdır

D) Neftlilik konturunun arxasında olan suyun ağırlıq qüvvəsindən yaranan hidrostatik basqıdır

E) Neftlilik konturunun daxilində olan suyun ağırlıq qüvvəsindən yaranan hidrostatik basqıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 139

52. Neftli lay sərt basqı rejimi ilə istismar edilir, bu zaman qidalanma konturu necə hərəkət edir?

A) Hərəkət etmir

B) Hərəkət edir

C) Paralel hərəkət edir

D) Perpendikulyar hərəkət edir

E) Dirəvi hərəkət etmir

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.X.Mirzəcanzadə, M.Ə,İsgəndərov, M.Ə.Abdullayev. Neft və qaz yataqlarının istismarı və işlənilməsi.Bakı, 2010, səh. 140

53. Layın suvurma üsulları hansılardır?

A) SAM,  mitselyar, su-qaz qarışığı

B) Konturarxası, konturyani, konturdaxili

C) Hidrokimyəvi, SAM, su-qaz qarışığı

D) Hidrofiziki, SAM, polimer

E) Hidrogeoloji, SAM, polimer

Testin çətinlik dərəcəsi: asan

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014, səh.377

54. Konturarxası suvurma üsulunda suvurucu quyular cərgəsi harda yerləşir?

A) Suvurucu quyular cərgəsi xarici neftlilik konturun yanında yatağın sulu zonasında yerləşdirilir

B) Suvurucu quyular cərgəsi xarici neftlilik konturunun daxilində yatağın sulu zonasında və kontura yaxın məsafələrdə yerləşdirilir

C) Suvurucu quyular cərgəsi xarici neftlilik konturunun arxasında yatağın sulu zonasında və kontura yaxın məsafələrdə yerləşdirilir

D) Suvurucu quyular cərgəsi xarici neftlilik konturunun daxilində yatağın susuz zonasında və kontura yaxın məsafələrdə yerləşdirilir

E) Suvurucu quyular cərgəsi xarici neftlilik konturunun arxasında yatağın susuz zonasında və kontura yaxın məsafələrdə yerləşdirilir

Testin çətinlik dərəcəsi: orta

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014, səh.377

55. Konturarxası suvurma üsulunda istismar neft quyuları cərgəsi harda yerləşir?

A) Xarici su konturunun daxilində yerləşdirilir

B) Daxili qaz konturunun içərisində yerləşdirilir

C) Daxili neftlilik konturunun üstündə  yerləşdirilir

D) Daxili neftlilik konturunun içərisində yerləşdirilir

E) Daxili neftlilik konturunun yanında yerləşdirilir

Testin çətinlik dərəcəsi: orta

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014, səh.377

56. Konturarxası suvurma üsulunda həm istismar quyuları, həm də vurucu quyular cərgəsi neftlik konturuna əsasən necə yerləşdirilir?

A) Konturun daxilində dördbucaq şəklində

B) Konturu kəsir

C) Kontura daxilində  üçbucaq şəklində

D) Kontura perpendikulyar

E) Kontura paralel

Testin çətinlik dərəcəsi: orta

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014, səh.377

57. Əgər konturarxası suvurma üsulunda neftlilik konturu yatağın müxtəlif sahələrində müxtəlif sürətlərlə irəliləyərsə, onda hansı proses baş verə bilər?

A) Yatağın yüksək məsaməliliyə malik olan hissəsində su dilləri əmələ gələ bilər

B) Yatağın yüksək keçiriciliyə malik olan hissəsində su dilləri əmələ gələ bilər

C) Yatağın yüksək özlülüyə malik olan hissəsində su dilləri əmələ gələ bilər

D) Yatağın yüksək sıxlığa malik olan hissəsində su dilləri əmələ gələ bilər

E) Yatağın yüksək təzyiqə malik olan hissəsində su dilləri əmələ gələ bilər

Testin çətinlik dərəcəsi: çətin

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014, səh.377

58. Təcrübədə tətbiq edilən əsas hidrodinamiki tədqiqat üsulları iki qrupa bölünür. Onlar hansılardır?

A) Neft yataqlarının geoloji quruluşunu, neftli və qazlı süxurların fiziki xüsusiyyətlərinə əsaslanan üsullar

B) Qərarlaşmış rejimlərə əsaslanan və qərarlaşmamış rejimlərə əsaslanan üsullar

C) Layın rejimini,geofiziki tədqiqatlar,suvurma üsulları

D) Neft yataqlarının geofiziki quruluşunu, layın energetik xüsusiyyətlərinə əsaslanan üsullar

E) Geofiziki tədqiqatlar, LNA  tədbiqi məsələləri

Testin çətinlik dərəcəsi: orta

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014, səh.335

59. Təzyiq 1 atm, temperaturu isə 00C olan mühit necə adlanır?

A) Geoloji şərait

B) Anormal şərait

C) Normal şərait

D) Texnoloji şərait

E) Texniki şərait

Testin çətinlik dərəcəsi: asan

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014, səh.335

60. Quyu ətrafındakı drenaj zonasında baş verən proses necə adlanır?

A) Geoloji proses

B) Differensasiya

C) Normal proses

D) Texnoloji proses

E) Drenaj prosesi

Testin çətinlik dərəcəsi: asan

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014, səh.337

61. Drenaj prosesi zamanı istismar quyusunda işlənmə prosesi necə gedir?

A) İstismar quyusu nefti drenaj zonasından sovurur və öz içərisinə doldurur

B) İstismar quyusu nefti drenaj zonasından sovurur və kontur arxasından sovurur

C) İstismar quyusu nefti konturun yanınan sovurur və öz içərisinə doldurur

D) İstismar quyusu nefti konturun daxilindən sovurur və öz içərisinə doldurur

E) İstismar quyusu nefti konturun arxasında sovurur və öz içərisinə doldurur

Testin çətinlik dərəcəsi: orta

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014, səh.337

62. Təbii yatım şəraitində kollektorların boşluqlarında olan neft, qaz və su, eləcə də məsaməli kollektor müəyyən təzyiq altında olur, bu təzyiq necə adlanır?

A) Lay təzyiqi

B) Doyma təzyiqi

C) İlk təzyiq

D) İzafi təzyiq

E) Təzyiqlər düşküsü

Testin çətinlik dərəcəsi: asan

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014, səh.337

63. Neft yataqlarının işlənilməsi üçün böyük əhəmiyyət kəsb edən mühüm amillərdən birini görsədin:

A) Neftin özlülüyü

B) Layin temperaturu

C) Dağ təzyiqi

D) Lay təzyiqi

E) Neftin sıxlığı

Testin çətinlik dərəcəsi: asan

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014, səh.337

64. Lay-quyu sistemində statik müvazinət halı qərarlaşdıqda quyuda lay mayesi sütununun hündürlüyünə əsasən hansı qiymət müəyyən edilir?

A) Məsaməlik əmsalı

B) Keçiricilik

C) Özlülük

D) Lay temperaturunun qiyməti

E) Lay təzyiqinin qiyməti

Testin çətinlik dərəcəsi: asan

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014, səh.338

65. Dərinlikdən asılı olaraq təzyiq və temperatur dəyişir, bunların dəyişməsi quyuda olan mayenin hansı parametrini dəyişir?

A) Sıxlığı

B) Rəngi

C) Səthi gəlirməsi

D) İstilik tutumu

E) Elektrikkeçirmə qabiliyyəti

Testin çətinlik dərəcəsi: asan

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014, səh.338

66. Məhsuldar layın üstündən yer səthinə qədər yatmış bütün layların  ağırlığından yaranan təzyiqə nə deyilir?

A) Neftin özlülüyü

B) Layin temperaturu

C) Dağ təzyiqi

D) Lay təzyiqi

E) Neftin sıxlığı

Testin çətinlik dərəcəsi: asan

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014, səh.338

67. Neftdə həll olmuş qaz sərbəst hala düşərək və qravitasiya qanununa əsasən qaz qabarcıqları neft mühitində yüxarı qalxar. Bu proses necə adlandırılır?

A) Reqressiya prosesi

B) Transqressiya prosesi

C) Sedimentasiya prosesi

D) Seqreqasiya prosesi

E) Denudassiya prosesi

Testin çətinlik dərəcəsi: orta

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014, səh.338

68. Seqreqasiya olunmuş qaz yatağın yüxarı hissəsində toplanaraq nə əmələ gətirir?

A) Neft və qaz qarışığını

B) Su dilləri

C) Neft

D) Qaz amili

E) Qaz papağı

Testin çətinlik dərəcəsi: orta

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014, səh.338

69. Seqreqasiya zamanı sərbəst qazın çox kicik qabarcıqları məsamə kanallarının dar yerlərində ilişib qalır və neftin süzülməsinə mane olur. Bu effekt necə adlandırılır?

A) Fişer effekti

B) Ayrılma effekti

C) Süzülmə effekti

D) Styudent effekti

E) Jamen effekti

Testin çətinlik dərəcəsi: orta

İstinad: D.Ə.İsgəndərov. Neft və qaz çıxarma işçiləri üçün məlumat kitabı. Bakı, 2014, səh.339

